**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

---

*əlyazması hüququnda*

**AYGÜN FIRIDUN QIZI HACIYEVA**

# ÜMUMİ MÜLKİYYƏT HÜQUQUNUN HƏYATA KEÇİRİLMƏSİ VƏ MÜLKİ HÜQUQİ MÜDAFİƏSİNİN NƏZƏRİ VƏ TƏCRÜBİ PROBLEMLƏRİ

**İXTİSAS: 5608.01 - "Mülki hüquq; sahibkarlıq hüququ; ailə hüququ; beynəlxalq xüsusi hüquq"**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2015**

**Dissertasiya işi Bakı Dövlət Universiteti Hüquq fakültəsinin «Mülki hüquq» kafedrasında yerinə yetirilmiş, müzakirə olunmuş və əsas müdafiəyə tövsiyə edilmişdir.**

| | |
|---|---|
| **Elmi rəhbər:** | **hüquq üzrə elmlər doktoru, professor M.D.DƏMİRÇİYEVA** |
| **Rəsmi opponentlər:** | **hüquq üzrə elmlər doktoru, professor A.İ.ABDULLİN** |
| | **hüquq üzrə fəlsəfə doktoru S.S.HƏSƏNOV** |
| **Aparıcı təşkilat:** | **Milli Aviasiya Akademiyasının "Hüquqşünaslıq" kafedrası** |

Dissertasiya işinin müdafiəsi «_26__» «___12__» 2015-ci il tarixdə saat «_____» Bakı Dövlət Universitetinin nəzdində təşkil edilmiş FD.02.013 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, akademik Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___» «_________» 2015-ci il tarixdə göndərilmişdir.

**FD.02.013 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru** **Ə.Q.MƏMMƏDOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı** müasir istehsal, iqtisadi, sosial və digər sahələrin transformasiyası ilə şərtlənir ki, bu da, öz növbəsində, yeni tip ictimai sistemlərin formalaşması üçün zəmin yaradır və mülkiyyətə xüsusi-hüquqi münasibətlərin əsas kateqoriyası kimi yenidən baxılmanı tələb edir. Mülkiyyət çoxsubyektli olduğundan sadəcə mülkiyyət subyektlərinin daxili strukturunu genişləndirib mürəkkəbləşdirmir, həm də mülkiyyət münasibətlərində onların tutduğu yerə (yerinə yetirdikləri funksiyalara) müvafiq olaraq yeni sosial təbəqələrin formalaşması anlamına gəlir. Mülkiyyət münasibətlərinin müasir strukturu mürəkkəb çoxsəviyyəli sistem kimi formalaşır: fərdi və ümumi başlanğıcların, mülkiyyət səviyyələrinin bir-birinə sıx təması, iqtisadiyyatın müxtəlif sahələrinin spesifikliyi mülkiyyətin müxtəlif formalarının təşəkkül imkanını və tələbatını yaradır, onların dinamika və transformasiyasını irəlicədən müəyyən edir. Müxtəlif təbəqələr və mülkiyyətçi qrupları, ərazi birlikləri, dövlət, milli qruplar və inhisarlar mülkiyyət münasibətlərinin subyektlərinə çevrilirlər.

Ümumi mülkiyyət hüququ haqqında qüvvədə olan qanunvericilik ölkənin bazar iqtisadiyyatına keçidinin başlanğıc dövründə qəbul edilmiş və həmin vaxtdan etibarən əsas parametrlər üzrə dəyişilməmişdir. Bir tərəfdən, bu, inandırıcı şəkildə sübut edir ki, onun əsas müddəaları müasir iqtisadiyyatın inkişaf tələblərinə uyğundur. Digər tərəfdən də, iqtisadi inkişafla paralel şəkildə inkişaf və transformasiya edən müasir ictimai münasibətlərə uyğunlaşdırılmış və hüquq elmi ilə nəzəri cəhətdən əsaslandırılmış dəyişiklik və əlavələrin edilməsi zərurətini göstərir. Təəssüf ki, Azərbaycan Respublikası (AR) mülki qanunvericiliyinin inkişaf konsepsiyası yoxdur və ümumi mülkiyyət hüququnun təkmilləşdirilməsi məsələsinə ayrıca baxılmamışdır. AR Mülki Məcəlləsinə 20 aprel 2012-ci ildə edilən dəyişikliklər isə mülki hüququn obyektlərinə mühüm dərəcədə yenidən baxmağa imkan versə də, dəyişikliklər “Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında” 20 aprel 2010-cu il tarixli AR Qanunundan irəli gələn müddəalara əsasən yalnız torpağa mülkiyyət hüququnun xüsusiyyətlərinə toxunduğundan, ümumi mülkiyyət institutuna dair müddəalar dəyişilməz saxlanılmaqla toplanmış kolliziya ehtiyatı da nizamlanmamış qalmışdır.



Hüquq ədəbiyyatında özünün hüquq təbiətinə görə mülkiyyət hüququ haqqında əsas normalar sahədənkənar (reper-nişan) hüquq normalarının əsas növünə aid edilir[1]. Mülkiyyət hüququnun bu günə qədər ayrıca mülki-hüquqi və ya hansısa digər sahəvi anlayışı (məsələn, inzibati, vergi, cinayət) mövcud deyil. Qanunla yalnız mülkiyyət hüququnun AR Konstitusiyasının müddəalarına əsaslanan və onları mülki, digər hüquq sahələri normalarında müşayiət edən, bu anlayışın ayrı-ayrı elementlərini müəyyənləşdirən vahid ümumi-xüsusi anlayışı nəzərdə tutulur.

Ölkədə mülkiyyət formaları – dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti dövlət tərəfindən bərabər şəkildə tanınır və müdafiə edilir. Mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməz (AR Konstitusiyası, maddə13); mülkiyyətin heç bir növünə üstünlük verilmir. Hər kəsin mülkiyyətində daşınan və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir. Dövlət vərəsəlik hüququna təminat verir (AR Konstitusiyası, maddə 29); hər kəsin qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilməsi (AR Konstitusiyası, maddə 59); zərər çəkmiş şəxsin ədalət mühakiməsinin həyata keçirilməsində iştirak etmək və ona vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququnun, eləcə də hər kəsin dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsi hüququnun olması (AR Konstitusiyası, maddə 68); bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam (AR Konstitusiyası, maddə 144, I, 6-cı bənd).

[1] Мозолин В.П. Научно-практический комментарий к Гражданскому кодексу РФ. М., Юнити-Дана 2010; Мозолин В.П. Роль гражданского законодательства о регулировании комплексных имущественных отношений. Журнал российского права, 2010, №1, с. 27-31.

AR Konstitusiyasının 26-cı maddəsinə görə hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir. Xatırladılan müddəalardan göründüyü kimi, AR Konstitusiyasında ümumi mülkiyyət institutu haqqında xatırladılmır.

AR-in Mülki Məcəlləsinə (MM) AR Konstitusiyasının mülkiyyət hüququnun məzmunu, onun özgəninkiləşdirilməsi və digər şəxslər tərəfindən istifadə edilməsi imkanı haqqında müddəalarını konkretləşdirən normalar daxil edilmişdir (maddə 213 və s.). AR MM-ə həmçinin mülkiyyət hüququnun əldə edilməsi və ona xitam verilməsinin əsasları, mülkiyyət hüququnun müdafiəsinin mülki-hüquqi üsulları haqqında normalar daxil edilmişdir; qanunla nəzərdə tutulan mülkiyyət formaları üzrə mülkiyyət hüququ subyektlərinin hüquqi vəziyyətini müəyyən edən normalar təfsilatlı şəkildə əks olunur.

Eyni zamanda, bu gün qüvvədə olan AR MM mülkiyyət hüququnun sadələşdirilmiş modelindən istifadə edir ki, o da hal-hazırda dövlət mülkiyyətinin təsir dairəsində xüsusilə intensiv şəkildə tətbiq edilir, yəni hər bir əşyanın yalnız bir mülkiyyətçisi ola bilər. Ümumi mülkiyyətə isə mürəkkəb hüquqi subyektin pay təşkili üsulu kimi baxılır. AR MM ümumi sahibliyin digər aspektlərini, onları təfsilatlı şəkildə hüquqi tənzimləmədən tərəflərin mülahizəsində saxlayır. AR MM-in 10-cu fəsli əslində ümumi və paylı mülkiyyət anlayışlarını sinonimləşdirir, çünki ümumi əmlaka sahibliklə əlaqədar əsas aspektlər, məsələn, ümumi sahiblik üzrə məsrəflər, və s. yalnız paylı sahiblik çərçivəsində nəzərdən keçirilir. Bu isə təcrübədə həmin müddəaların birgə mülkiyyətlə bağlı mübahisələrə analogiya üzrə tətbiqini labüd edir ki, bu da paylı və birgə mülkiyyətinin xüsusiyyətlərindəki fərqdən irəli gələn bir sıra uyğunsuluqların yaranmasına səbəb olur. Ər-arvadın ümumi mülkiyyəti və ya ailə (kəndli) təsərrüfatının ümumi mülkiyyətdəki əmlakı səthi şəkildə təsvir edilir. Bu formalar ayrı-ayrı qanunvericilik aktlarında ətraflı nəzərdən keçirilir, lakin həmin qanunvericilik aktları ilə AR MM-in normaları arasında kolliziya yarandıqda «Normativ hüquqi aktlar haqqında» AR Qanununun 2.5-ci maddəsinə əsasən, AR MM-in müddəaları əsas götürülür ki, bu da praktikada bir sıra çətinliklər yaradır.



Bununla bərabər, bazar iqtisadiyyatının fəaliyyət göstərdiyi şəraitdə ticarət dövriyyəsində iştirak edən əmlak mülkiyyətçisi vəziyyətində olan tamhüquqlu hüquq subyekti yaratmaq məqsədilə hüquq mülkiyyətçisinin mürəkkəb-struktur modelini daha geniş tətbiq etmək lazımdır. Bu modelə əsasən, əmlak eyni zamanda bir neçə mülkiyyətçiyə məxsus ola bilər.

Ümumi mülkiyyət formasında mülkiyyət hüququnun mürəkkəb-struktur modelinin üfüqi variantı dövlət təşkilatlarının iştirak etdiyi münasibətlərdə geniş tətbiq olunur.

Obyekti torpaq və digər təbii ehtiyatlar olan subyektlərin (Naxçıvan Muxtar Respublikası) və AR-in iştirakı ilə əmlak münasibətlərində, onun şaquli variantında mülkiyyət hüququnun mürəkkəb-struktur modelindən istifadə imkanı da hansısa ciddi etirazlar doğurmur. Mülkiyyət hüququnun baxılan modeli istehsal-kommersiya fəaliyyətinin həyata keçirilməsi zamanı rəsmi hüquqi şəxs hüquqlarına malik olan dövlət orqanları və təşkilatları tərəfindən istifadə edilə bilər. Bunu istifadə etdikləri əmlaka görə hüquqi şəxslər üçün dövlət mülkiyyət hüququnu təsbit edən dövlət şirkətləri (kompaniyaları) haqqında qanunvericilik də sübut edir.

Mülkiyyət hüququnun mürəkkəb-struktur modelinin dövlət-rəsmi hüquqi şəxslərin digər kateqoriyalarına və fəaliyyət sahələrinə tətbiqi sferasının yayılması, fikrimizcə, ölkənin iqtisadiyyatına hüququn müsbət təsir potensialının artmasına köməklik göstərə bilər.

Cəmiyyətin fəaliyyətinin iqtisadi, hüquqi və sosial sahələrinin müasir inkişaf dinamikası iqtisadi münasibətlər sisteminin, o cümlədən, ümumi mülkiyyət münasibətlərinin ardıcıl və kompleks şəkildə islahatının zəruriliyini təsdiq edir ki, bu da dissertasiya tədqiqatı mövzusunun aktuallığını bir daha şərtləndirir.

**Mövzunun elmi işlənmə dərəcəsi.** Dissertasiya tədqiqatını aparарkən müəllif həm Azərbaycan, həm də digər xarici ölkələrin tədqiqatçılarının elmi əsərlərinə istinad etmişdir. Onlardan İ.Q.Əsgərovu, M.D.Dəmirçiyevanı, Y.Ə.Mehdiyevi, M.Mövsumovu, R.A.Göyüşovu, Q.A.Aksenenoku, K.N.Annenkovu, M.V.Antokolskayanı, N.A.Barinovu, V.V.Bezbaxı, S.N.Bratusu, A.V.Venediktovu, V.V.Vitryanskini, Y.M.Verojeykini, D.M.Qenkini, N.D.Yeqorovu, D.F.Yeremeyevi, A.A.Yeroşenkonu, O.S.İoffeni, M.V.Zimilevanı, Y.X.Kalmıkovu, V.P.Mozolini, V.P.Kamışanskini, A.V.Karassı, M.İ.Kozırı, S.M.Korneyevi, O.Y.Kosovanı, R.F.Mojitovanı, R.P.Manankovanı, M.Q.Maseviçi,

V.F.Maslovu, D.İ.Meyeri, N.N.Misniki, A.M.Neçayevanı, N.N.Paxomovanı, K.P.Pobedonostsevi, P.İ.Puqinskini, R.O.Xalfinanı, Q.F.Şerveniviçi və b. göstərmək olar. XXI əsrin başlanğıcında ümumi mülkiyyət hüququ monoqrafiya və dissertasiya səviyyəsində L.M.Minkina, N.V.Firsova, N.Y.Sinelnikova, P.İ.Tyutyunik, B.Q.Qonçiknimayeva və digərləri kimi hüquqşünasların tədqiqat obyekti olmuşdur.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyekti ümumi mülkiyyət institutunun mülki-hüquqi tənzimlənməsi ilə əlaqədar yaranan ictimai münasibətlər, mülki-hüquqi normativ aktların tətbiqinin mövcud praktikası, dissertasiya tədqiqatının məsələləri üzrə əsas elmi-nəzəri konsepsiyalar olmuşdur.

**Tədqiqatın predmeti.** Tədqiqatın predmeti ümumi mülkiyyətin müxtəlif növlərində mülkiyyət hüquqlarının realizəsinin əsas aspektlərinin ətraflı mülki-hüquqi tədqiqi, eləcə də ən az müdafiə edilən mülkiyyətçilər kateqoriyasının müdafiə təminatlarının dövlət-hüquqi təmini vasitələridir.

**Dissertasiya tədqiqatının məqsədi.** Bu tədqiqatın məqsədi ümumi mülkiyyət institutunun mülki-hüquqi aspektlərinin kompleks sistemli təhlili, ümumi mülkiyyət hüququnun realizəsinin nəzəri və praktiki problemlərinin tədqiqi, onların müdafiə vasitələrinin təkmilləşdirilməsidir.

Göstərilən məqsədə çatmaq üçün dissertasiya tədqiqatının müəllifi qarşısına **aşağıdakı vəzifələri** qoymuşdur:

- ümumi mülkiyyəti iqtisadi kateqoriya kimi müəyyən etmək;
- AR mülki qanunvericiliyinin inkişaf istiqamətini nəzərə almaqla ümumi mülkiyyət hüququ anlayışına müəllif tərifini vermək;
- ümumi mülkiyyət hüququnun əmələ gəlməsi əsaslarını tədqiq etmək;
- ümumi pay və birgə mülkiyyət hüquq münasibətlərinin subyekt tərkibini öyrənmək;
- ümumi pay və birgə mülkiyyət hüququnun obyekt tərkibini müəyyən etmək;
- ümumi pay və birgə mülkiyyət hüququnda sahiblik, istifadə və sərəncamın xüsusiyyətlərini aşkar etmək;
- ümumi mülkiyyətin müdafiə tədbirlərinin tətbiqi əsasları və qaydalarını müəyyən etmək;
- ümumi mülkiyyət hüququnun müdafiəsinin nəzəri problemlərinin müqayisəli hüquqi təhlili;



- ümumi mülkiyyət hüququnun müdafiəsi mexanizmlərini təhlil etmək.

**Tədqiqatın metodoloji əsasını** hüquq elmi tərəfindən aşkar edilən və praktikada aprobasiya edilən müasir idrak metodları təşkil edir. İş tarixi, məntiqi, normativ-hüquqi və müqayisəli-hüquqi təhlilin ümumelmi metodlarından istifadəyə əsaslanmışdır. Qarşıya qoyulan vəzifələrin həlli zamanı bir sıra xüsusi metodlardan, o cümlədən statistik, konkret-sosioloji, sistem, struktur-funksional və modelləşdirmə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın nəzəri bazasını** xüsusi hüquqi ədəbiyyat, mülki, ailə hüquqları, hüquq və dövlət nəzəriyyəsi, sosiologiya, beynəlxalq ümumi və xüsusi hüquq üzrə elmi tədqiqatlar təşkil etmişdir.

**Tədqiqatın empirik bazasını** inzibati-iqtisadi məhkəmələrin və ümumi yurisdiksiyalı məhkəmələrin təcrübəsi, xarici ölkələrin məhkəmə təcrübəsinin icmalları, daşınmaz əmlaka hüququn qeydiyyatına dair statistik məlumatlar, sosioloji tədqiqatların nəticələri, AR Nazirlər Kabinetinin hesabat materialları təşkil etmişdir.

**Dissertasiyanın elmi yeniliyi** onda əvvəllər xüsusi tədqiqat predmeti olmayan bir sıra məsələlərin öyrənilməsindən, mürəkkəb sahələrarası institut kimi ümumi mülkiyyətin tənzimlənməsi mexanizmlərinin ətraflı mülki-hüquqi təhlilinin aparılmasından ibarətdir.

**Müdafiəyə çıxarılan əsas yeni elmi müddəalar:**

1. Ümumi mülkiyyətin müdafiəsində təkcə iştirakçıların özləri deyil, həm də dövlət maraqlıdır. Ona görə də ümumi mülkiyyət institutunun müdafiəsinin effektivliyinin zəruri şərti - xüsusi-hüquqi və ümumi-hüquqi müdafiə üsullarının birləşdirilməsidir. Xüsusi-hüquqi üsullar mümkün iddiaların çoxçeşidliliyini təmin edir və subyektin (mülkiyyətçinin) təşəbbüsü ilə tətbiq edilir. Ümumi (dövlət) hüququn normaları isə onların tətbiqi üçün geniş əsaslar siyahısının eyni zamanda təsbit edilməsi ilə az sayda müdafiə üsullarının olması halında üzə çıxır, bu zaman subyektin təşəbbüsü mütləq deyildir.

2. Təsərrüfat idarəetməsi hüququnun əşya hüquqları sistemindən ayrılmasına nail olmaqla, onun müstəsna şəkildə dövlət hüquqi tənzimlənməsi sisteminə keçirilməsi zəruri hesab edilməlidir. Bununla da, biri-birindən hüquqi təbiətinə görə fərqlənən əşya və təsərrüffat idarəetməsi hüquqlarının tam şəkildə bir-birindən ayrılması təmin edilməlidir.

3. Mülkiyyət hüququ – bu, subyektin öz mülahizəsinə görə, öz marağı naminə, öz iradəsi ilə və digər şəxslərin iradəsindən asılı olmayaraq, ictimai, ümumdövlət və üçüncü şəxslərin özəl maraqlarına ziyan vurmadan sərbəst şəkildə realizə etdiyi, əmlaka münasibətdə subyektə hüquqi və ya faktiki şəkildə geniş səlahiyyətlər kompleksi verən mütləq əşya hüququdur.

4. Ümumi mülkiyyətin əsas anlayışlarını tədqiq etməklə müəllif «pay» terminindən istifadənin ziddiyyətliliyi qeyd edilməlidir. Sivilistlərin əksəriyyəti «paylar» anlayışına əşyanın özündə deyil, mülkiyyət hüququnda paylar kimi baxırlar, lakin qanunda «pay» termini daha bir mənada – əşyanın (əmlakın) bir hissəsi kimi nəzərdən keçirilir. Belə ki, AR MM-in 215.2-ci maddəsinə əsasən, paylı mülkiyyətin mülkiyyətçisi ümumi əşyanın öz payına uyğun hissəsinin onun sahibliyinə və istifadəsinə verilməsi hüququna malikdir, bu, mümkün olmadıqda isə onun payına düşən əşyaya sahiblik və ondan istifadə edən digər mülkiyyətçilərdən müvafiq əvəz ödəməyi tələb edə bilər. Ehtimal ki, əgər pay dedikdə, mülkiyyət hüququnda ideal kvota başa düşülsəydi, onda bu payın ayrılmasını tələb etmək ağlasığmaz olardı: əgər biz onun ölçüsünü (məsələn, 1/3) biliriksə, deməli, o, artıq «ayrılmışdır». Anlayışın belə ikiləşməsindən qaçılmasının tələb olunması tamamilə anlaşılmazdır.

5. Sovet dövründə ümumi mülkiyyət institutunun hüquqi tənzimlənməsinin xüsusiyyətlərini nəzərdən keçirilməklə, ümumi mülkiyyətə dair həmmülkiyyətçilərin hüquq və maraqlarının dövlət təminatının aşağıdakı aktual vasitələrinə diqqət yetirilmişdir. Belə ki, Azərbaycan SSR-in 1964-cü il Mülki Məcəlləsinin 118-ci maddəsi payları məlum olan ümumi mülkiyyətdəki yaşayış evinin mülkiyyətçiləri arasında öz paylarına müvafiq olaraq, evin ayrı-ayrı hissələrindən (mənzillərdən, otaqlardan) istifadə qaydası ilə bağlı razılıq əldə etmələrini zəruri edirdi. Paylarının ayrılması zamanı ayrılması mümkün olmayan sahələrdən istifadə qaydalarını müəyyən bu razılıq notarial qaydada təsdiq edilməklə, yerli xalq deputatları Sovetinin icraiyyə komitəsində (müasir anlamda müvafiq icra hakimiyyətində) qeydə alındıqdan sonra nəinki razılığa gələn həmmülkiyyətçilərə, hətta sonradan payı əldə edə biləcək yeni həmmülkiyyətçilərə də tətbiq edilirdi. Müasir şəraitdə bu müddəa daha çox ümumi mülkiyyətdə olan təsərrüfat subyektlərinə uyğundur.



6. AR-də ümumi mülkiyyət hüququnun ən geniş yayılmış subyektləri ər və arvaddır. Hüquqtətbiqi praktikasının təhlilinin göstərdiyi kimi, məhz bu kateqoriya subyektlər arasında mülki-hüquqi tənzimləmə üçün ümumi mülkiyyətdə payın müəyyən edilməsi böyük çətinliklər yaradır. Bu zaman qeyd edilnəlidir ki, AR MM-in 10-cu fəsli ailə maraqlarının nəzərə alınması funksiyasını realizə etmir. Xüsusi-hüquqi əmlak münasibətlərinin bu sahənin dövlət-hüquqi tənzimlənməsinin rolunu artırmaq üçün, Mülki və Ailə məcəllələrinə müvafiq dəyişikliklər edilməsi ilə məcburi nikah müqaviləsinin tətbiq edilməsi haqqında məsələyə baxılmalıdır. Tərəflər bu nikah müqaviləsinin müddəalarını müstəqil müəyyən etmək hüququna malikdirlər, lakin bu subyektlərdən təşəbbüs olmadığı halda müvafiq qeydiyyat şöbələri nikahın bağlanmasına qədər nikaha girənlər arasında nikah müqaviləsinin nümunəvi formasının imzalanmasını təmin etməlidirlər.

7. Mülki-hüquqi tənzimləmədə çətinlik doğuran daha bir aspekt ər-arvadın ümumi əmlakının vərəsəlik məsələsidir. AR MM-in 1162-ci maddəsində birbaşa bəyan edilir: sağ qalan arvadın (ərin) vərəsəlik hüququ ər-arvadın birgə mülkiyyətindən ona çatası əmlak hissəsinə aid deyildir. Beləliklə, əmlak hüquqlarının bu və ya digər obyektini tənzim edən iki bərabər hüquq arasında kolliziya yaranır ki, bu da hüquqtətbiqetmə təcrübəsini mühüm dərəcədə çətinləşdirir. Bu problemi həll etmək üçün nümunəvi nikah müqaviləsinə müvafiq müddəaların daxil edilməsi yolu ilə subyektlərin vərəsəlik hüquqları sahəsini gücləndirmək zəruridir.

8. Fikrimizcə, ailə kəndli təsərrüfatının ümumi əmlakından istifadə və ona sahibliyin xüsusiyyətləri Torpaq Məcəlləsində, Ailə Məcəlləsində vərəsəlik və digər münasibətləri tənzimləyən başqa mülki hüquq institutlarında qanunvericiliklə təsbit edilməlidir.

9. Ümumi mülkiyyət institutunun əsas anlayışlarının ətraflı təhlili birgə və pay mülkiyyəti anlayışlarının qarışdırılması haqqında nəticəyə gəlməyə imkan verir. Belə ki, məsələn, AR MM-in 224-cü maddəsinə əsasən, paylı və ya birgə mülkiyyət mülkiyyətçisinin başqa əmlakı kifayət etmədikdə, onun kreditoru borclunun ümumi əşyadakı payına tutmanın yönəldilməsi üçün həmin payın ayrılmasını tələb edə bilər. Qanuna görə imtina halında kreditorun ixtiyarı vardır ki, tutmanın borclunun ümumi mülkiyyət hüququndakı payına onun açıq hərracdan satılması yolu ilə yönəldilməsini məhkəmə qaydasında tələb

etsin. Əgər bu, mümkün deyildirsə, pay ya ümumi mülkiyyətin digər iştirakçılarına, ya da açıq hərracdan üçüncü şəxslərə satılmalıdır. Qanun həm ümumi pay, həm də ümumi birgə mülkiyyət üçün vahid rejim müəyyənləşdirir. Lakin ümumi mülkiyyətin bu növləri bir-birindən köklü surətdə fərqlənir və ümumi birgə mülkiyyətdə payın, ümumiyyətlə, hansısa satışı barədə söhbət gedə bilməz, çünki hüququn belə obyekti ümumiyyətlə mövcud deyildir. Göründüyü kimi, qanunvericilik paylı mülkiyyətdəki payına kreditorların tələbinin yönəldilməsi prosedurunu müəyyən etmişdir. Lakin birgə mülkiyyətə tələbin yönəldilməsi məsələsi açıq qalmışdır. Belə ki, məlumdur ki tələbin yönəldilməsi üçün ilk növbdə pay bəlli olmalıdır ki, birgə mülkiyyətdə də pay bəlli deyildir. Həmçinin, məlumdur ki birgə mülkiyyətdə olan əmlakdan payın ayrılmasını tələb etmə üzrə subyektiv hüquq yalnız həmmülkiyyətçilərə məxsusdur. Bu isə kreditorları çıxılmaz vəziyyət qoyur. Qanunvericilik bu halı tənzimləməsə də, məhkəmə praktikasının təhlili onu göstərmişdir ki, məhkəmələr birgə əmlakdan payın müəyyən edilməsi tələbi üzrə həmmülkiyyətçilərdən başqa, kreditorun da hüququnun olmasını qəbul edərək, bu şəkildə mübahisələri həll edirlər. Bunu nəzərə alaraq hesab etmək olar ki, praktikada tətbiq edilən bu prosedur səmərəli olduğundan qanunvericilkdə də təsbit olunmalıdır.

10. Qeyd edilməlidir ki, ərlə arvadın ümumi mülkiyyəti məsələlərinin tənzimlənməsində mühüm kolliziya Mülki və Ailə məcəllələrinin normaları arasındakı rəqabətdir. Ümumi qaydaya görə əmlak münasibətlərinin tənzimlənməsi AR MM çərçivəsində həyata keçirilir. Lakin AR Ali Məhkəməsi Plenumunun 2 dekabr 1994-cü il tarixli 8 saylı «Ər-arvad arasında əmlak mübahisələri ilə əlaqədar məhkəmə təcrübəsində qanunvericiliyin tətbiqi haqqında» Qərarında təklif edilir ki, ərlə arvadın birgə ümumi mülkiyyəti hesab edilən əmlakın bölünməsi zamanı məhkəmə ər-arvaddan birinin diqqətəlayiq maraqlarını nəzərə almalıdır, yəni ailə hüququnun normalarına əsaslanmalıdır (Ailə Məcəlləsi, maddə 36, 37). Bu müddəa ərlə-arvaddan birinin mənafelərinin müdafiəsini nəzərdə tutur, lakin bu məhkəmə praktikasında müvafiq əsaslar olmadan mümkün ər-arvaddan birinin xeyrinə oxşar subyektiv halların şərh edilməsinə köməklik göstərə bilər. Bu zaman dissertasiya tədqiqatında işlənib hazırlanmış nümunəvi nikah müqaviləsi mülki və ailə



qanunvericilikləri arasında ziddiyyətləri istisna etməyə və bu işlər üzrə vahid məhkəmə təcrübəsinin formalaşdırılmasına imkan verəcəkdir.

11. Bölünməli olan əmlakın yüklü olmasının təyini və onun ər-arvaddan digərinə ödənilən kompensasiyadan asılılığı ilə də çətinlik yaranır. Mülki-hüquqi qanunvericiliyin bu bölməsi ər-arvadın hüquqlarının müdafiəsi məqsədilə yeni hüquq normalarının tətbiqi vasitəsilə təkmilləşdirilməlidir. Yəni verilən əmlakın dəyərindən və onun ölçüsündən asılı olaraq əmlaka görə kompensasiyanın hədlərini müəyyən etmək lazımdır. Mülkiyyətçi həmçinin öz əmlakının tərkibinin yüklülük anlayışını aydınlaşdırmalıdır.

12. Ölkə qanunvericiliyində ümumi mülkiyyətdə olan əmlakın müdafiəsi haqqında iddialarla bağlı çoxsaylı müraciətlərin olmasına baxmayaraq, bir həmmülkiyyətçinin iddiası ilə bütün həmmülkiyyətçilərin xeyrinə əşya verməyə imkan verən prosessual mexanizmin olmaması üzündən oxşar mexanizmin işlənib hazırlanması üzrə səylər edilməlidir. Onun prosessual qanunvericiliyə tətbiqinə qədər məhkəmə təcrübəsində əldə olan hüquqi vasitələrlə eyni nəticələrə nail olmağa yönəldilmiş tədbirlər qəbul etmək arzuediləndir. O cümlədən, məhkəmələrə tövsiyə olunur ki, mülkiyyətçilərdən biri tərəfindən təşəbbüs edilən proses haqqında digər mülkiyyətçilərin bilməsi üçün tədbirlər görsün və sonra bütün mlükiyyətçiləri iddiaçı tərəfində üçüncü şəxslər kimi, daha yaxşısı – həmiddiaçılar kimi işə cəlb etsin. Əgər bu yolda hansısa keçilməz çətinliklər dayanacaqsa (məsələn, mülkiyyətçilərin sayının çox olması sayəsində), onda ümumi hüquqların müdafiəsi işində göstərdiyi fəallığa görə, onun vicdanlılığına əsaslanaraq onu mükafatlandırmaqla əşyanı iddiaçının xeyrinə vermək olar, yəni ona görə ki, gələcəkdə iddiaçı mübahisəli əşyadan istifadə və onu sahiblikdə digər mülkiyyətçilərə maneçilik törətməyəcəkdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Dissertasiyanın predmetini təşkil edən problemlərin nəzəri təhlili cəmiyyətdə iqtisadi islahatların təcrübəsi, hüquqyaradıcılığı və hüquqtətbiqi prosesləri ilə qarşılıqlı əlaqədə aparılmışdır. Dissertasiyada olan ümumiləşdirmələr və nəticələr, praktiki tövsiyələr və təkliflər ümumi mülkiyyət institutunun normativ-hüquqi tənzimlənməsinin sonrakı təkmilləşdirilməsinə köməklik göstərməyə qadirdir.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Dissertasiya tədqiqatının materialları mülki hüquq kursunun tədrisində istifadə edilə bilər.

Toplanmış və ümumiləşdirilmiş material, onların əsasında edilmiş nəticələr mülkiyyət münasibətlərini, onların hüquqi müdafiəsini tənzimləyən qanun layihələrinin, eləcə də mövcud qanunvericiliyin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması zamanı hüquqyaradıcılığı fəaliyyətində istifadə edilə bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universiteti Hüquq fakültəsinin «Mülki hüquq» kafedrasında yerinə yetirilmiş, müzakirə edilərək əsas müdafiəyə tövsiyə olunmuşdur. Onun əsas müddəa və nəticələri elmi konfranslarda və digər elmi tədbirlərdə şərh olunmuş, habelə AR və Rusiya Federasiyasının nüfuzlu jurnallarında elmi məqalə və tezislər şəklində dərc edilmişdir.

**Dissertasiyanın strukturu** tədqiqatın məqsəd və vəzifələri ilə müəyyən edilməklə giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqat mövzusunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekt və predmeti, işin məqsəd və vəzifələri müəyyən edilir, onun elmi yeniliyi açıqlanır, mövzunun elmi işlənmə dərəcəsi, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti üzə çıxarılır, müdafiə edilən əsas yeni elmi müddəalar irəli sürülür.

Dissertasiya tədqiqatının **«Ümumi mülkiyyət hüququnun ümumnəzəri məsələləri»** adlandırılan birinci fəsli üç paraqrafdan ibarətdir.

**«Mülkiyyət hüquqi və iqtisadi kateqoriya kimi»** adlanan birinci paraqraf cinsi və növ anlayışı kimi mülkiyyət hüququnun anlayışının müzakirəsinə və məzmununun müəyyənləşdirilməsinə həsr olunmuşdur. Paraqrafda mülkiyyət hüququnun anlayışı və məzmunu müəyyənləşdirilir, mülki qanunvericiliyin müasirləşdirilməsinin tənqidi təhlili aparılır, təkmilləşdirilmənin əsas istiqamətləri müəyyən edilir.

Nəzərə alsaq ki, mülkiyyət iqtisadi kateqoriya kimi müəyyən iqtisadi rifahların şəxsə (şəxslərə) məxsusluğunu bildirir, onda mülkiyyət hüququ əmlak münasibətlərinin mühüm tənzimləyicisi olmalıdır. Mülkiyyət insan hüquq və azadlıqlarının ifadə forması və istiqamətlərindən biri kimi çıxış etməklə onlar üçün iqtisadi əsas



yaradır. Mülkiyyət münasibətlərinin iqtisadi məzmunu iki əsas aspektlə səciyyələnir ki, onlar da mülkiyyət münasibətlərinin xüsusi hüquqi tənzimlənməsini tələb edir. Birincisi, mülkiyyətçiyə öz mülahizəsinə görə əşya üzərində təsərrüfat sahibliyinə imkan verən və kiminsə iradəsindən asılı olmayaraq ona məxsus maddi rifahdan tələbatlarını təmin etmək və bütün digər şəxsləri kənarlaşdırmaqla ondan gəlir əldə etmək məqsədilə istifadə etmək. İkincisi, mülkiyyətin yüklülüyü. Bura saxlanmaya, təmirə, əmlakın mühafizəsinə, vergilərin ödənilməsinə, eləcə də qeyri-rasional, yaxud səriştəsiz idarəetmədən yaranan (müflisləşməyə qədər) mümkün itkilərin riskinə çəkilən xərclərin həyata keçirilməsinin zərurəti daxildir.

Mülkiyyət hüququ hüquqi kateqoriya kimi isə son dərəcə mütləq, «ideal» əşya hüququdur, onda ən yüksək dərəcədə əşya hüquqlarının təbiəti təcəssüm edir. Belə ki, müəllifin fikrincə, mülkiyyət hüququ subyektin onun barəsində özünün istədiyi kimi, öz arzusuna uyğun, sərbəst şəkildə və əlbətdə ki, ictimai münasibətlərə və üçüncü şəxslərin hüquqlarını pozmadan həyata keçirdiyi hüquqdur. Bu səbəbdən də mülkiyyət münasibətlərinin hüquqi tənzimlənməsi olmadan nə qədər inkişaf etmiş cəmiyyət olursa-olsun, keçinə bilməz.

Paraqrafda həmçinin qeyd edilir ki, ölkəmizdə inqilabaqədərki, sovet və postsovet dövrlərindəki qanunvericiliyimizdə ideoloji yanaşmalardakı fərqlərə baxmayaraq, mülkiyyət hüququnun dərk edilməsində müəyyən hüquq varisliyi saxlanılmışdır.

**«Ümumi mülkiyyət hüququnun anlayışı»** adlanan ikinci paraqrafda ümumi mülkiyyət hüququna müasir qanunvericiliyinin tələbləri baxımından daha təkmil formada anlayışının verilməsinə çalışılmışdır. Yəni əslində ədəbiyyatda ümumi mülkiyyət hüququna verilən təriflərin əksəriyyəti onun subyektiv tərkibi ilə bağlı olmuşdur ki, bu da ümumi mülkiyyət hüququnun məzmunu tam şəkildə açıqlamağa imkan vermir. Halbuki, ümumi mülkiyyət hüququ obyektiv mənada – vahid əmlakın eyni zamanda iki və daha çox şəxsə məxsusluğunu təsbit edən, tənzimləyən və mühafizə edən hüquq normalarının məcmusudur. Ümumi mülkiyyət hüququ subyektiv mənada – iki və ya daha çox şəxsin birlikdə və ümumi iradə ilə onlara məxsus vahid əmlaka sahiblik etmək, ondan istifadə etmək və ona dair sərəncam vermək hüququdur.

Bu paraqrafda həmçinin, ümumi mülkiyyət hüququnun əldə edilməsi problemləri də işıqlandırılmışdır. Göstərilir ki, ümumi mülkiyyət hüququ əldə edilməsinin əsasları müxtəlif hüquq doğuran hüquqi faktlar, yəni real mövcud olan elə həyati hallardır ki, onlar qanuna müvafiq olaraq konkret şəxslərdə müəyyən əmlaka mülkiyyət hüququnun yaranmasına səbəb olur. Mülki hüquq doktrinasında mülkiyyət hüququnun əldə edilməsi üsullarının bölünməsi haqqında, daha dəqiq desək, belə təsnifatın əsasları haqqında məsələ kifayət qədər diskussiyalar doğurur. Mülki qanunvericiliyə, eləcə də inqilabaqədərki, sovet və müasir alim-sivilistlərin fikirlərinə baxılması əsasında daha çox nəzəri və praktiki cəhətdən özünü doğruldan təsnifat hüquq sahibinin və hüquq əldə edənin (subyektiv əlamət) iradələrinin razılaşdırılması əsasında aparılan təsnifat deyil, hüquq sələflərindən hüquq əldə edənin asılılıq əsaslarına (obyektiv əlamət) görə aparılan təsnifat hesab edilir. Qanunvericiliyin və hüquq tətbiqi praktikasının öyrənilməsi əsasında müəyyən edilmişdir ki, iştirakçılarda ümumi mülkiyyət hüququnun yaranması əsaslarının spesifikliyi o hesab edilir ki, bir sıra hallarda iştirakçılar ümumi mülkiyyət hüququnu bunu birbaşa iradələrinə (iradə ifadə etmələrinə) yönəldilmədən, çox vaxt isə (çoxmənzilli evlərdə mənzillərin ümumi mülkiyyət mülkiyyətçiləri, ər-arvadın ümumi birgə mülkiyyəti) onun subyektlərinin ona öz iradəsini birbaşa ifadə etmədən, yaxud hətta onların iradəsi əleyhinə əldə edirlər. Bununla əlaqədar, ümumi mülkiyyət hüququnun yaranması əsaslarının xarakteristikası zamanı bölünmənin ilkin və törəmə üsullarının praktiki əhəmiyyəti itir, çünki bu az dərəcədə həmmülkiyyətçilərin daxili münasibətlərinə təsir edir.

Odur ki, tədqiqatçı ümumi mülkiyyət hüququnun yaranması əsaslarını aşağıdakılar üzrə təsnifləşdirməyi təklif edir: 1) gələcək həmmülkiyyətçilərin iradəsindən asılı olan əsaslar (sadə yoldaşlıq birgə investiyalaşdırma); 2) gələcək həmmülkiyyətçilərin iradəsindən asılı olmayan əsaslar (artma, qarışma, çoxmənzilli evlərdə ümumi əmlaka paylı mülkiyyətin yaranması və ər-arvadın ümumi birgə mülkiyyəti).

**«Ümumi mülkiyyət hüququnun subyektləri və obyektləri»** adlanan üçüncü paraqrafda növbəlilik qaydasında ümumi mülkiyyət subyektlərinin və obyektlərinin ayrı-ayrı kateqoriyaları nəzərdən keçirilmişdir. Tədqiqatda ümumi mülkiyyət subyektləri üzrə ənənəvi təsnifat aparılır. Ayrı-ayrı kateqoriyaların normativ tənzimlənməsi formalarındakı ziddiyyətlər müəyyən edilmiş, yenidən baxılma tələb



edən mövcud qanunvericiliyin konkret müddəalarına dair ilkin şərtlər (təməllər) verilmişdir.

Normativ-hüquqi bazanı və hüquqtətbiqi praktikasını tədqiq etməklə müəllif belə bir nəticəyə gəlir ki, ümumi mülkiyyətin ən az müdafiə edilən subyektlər kateqoriyası ər-arvad hesab olunur. Aparılan tədqiqat nəticəsində belə bir fikrə gəlinir ki, istənilən halda qanun birgə mülkiyyətçilər kimi ər-arvadı mühafizə və müdafiə etmir, çünki zərərli nəticələrin olmasına və onların başlamamasına, pozulmuş və ya mübahisə edilən hüququn bərpasına təminat vermir. Hüquq ədəbiyyatında qeyd edilən prezumpsiyanın olması isə müdafiəni istisna edir, çünki o, sadəcə yoxdur. Ər-arvaddan birinin öz mülkiyyət hüququnun müdafiəsi üçün iddia irəli sürməsi mənasız bir şeyə çevrilir. Ər-arvadın mülki-hüquqi statusunu, ümumi mülkiyyət subyektləri kimi ətraflı nəzərdən keçirməklə müəllif, digər xüsusi subyekt-fermer institutunu da ətraflı nəzərdən keçirir. Müəllif hesab edir ki, ailə kəndli təsərrüfatının ümumi əmlakına sahiblik etmənin və ondan istifadənin həyata keçirilməsinin paylı mülkiyyətdən başlıca fərqi həmmülkiyyətçilərin qarşılıqlı münasibətlərinin xüsusi xarakteri ilə müəyyən edilir. Ailə kəndli təsərrüfatının tərkibi ailə üzvlərindən və onlarla qohumluq və ya digər münasibətlər əsasında birgə fəaliyyət göstərən şəxslərdən ibarət ola bilər. Vətəndaşların belə birliklərinin əsas meyarı ümumi mülkiyyətdə əmlaklarının olması və şəxsən iştirak etməklə birgə istehsal (təsərrüfat) fəaliyyətinin həyata keçirilməsidir.

Bu paraqrafda müəllif, mülkiyyət hüququnun obyektləri ilə bağlı əsasən çoxmənzilli evlərin ümumi mülkiyyətinin hüquqi tənzimlənməsinin xüsusiyyətlərini nəzərdən keçirmişdir. Belə ki, son illərdə binaların həm yaşayış, həm də qeyri-yaşayış sahəsi kimi mülki hüquqların müstəqil vahid obyekti kimi statusunu itirməsi situasiyası geniş yayılmışdır. Bu, binalarda yaşayış və qeyri-yaşayış sahələrinin müxtəlif şəxslərin mülkiyyətinə verilməsi ilə əlaqədardır. Nəticədə bina daşınmaz vahid obyekt kimi ayrı-ayrı yerlərə «bölünür» – mülki hüquqların müstəqil obyektləri və ümumi istifadə obyektləri (bina mənzilləri mülkiyyətçilərinin ümumi əmlakı) yaranır. Bununla əlaqədar ümumi istifadə obyektlərinin xüsusi rejimini müəyyənləşdirmək zərurəti yaranır. Bu obyektlər birdən çox mülkiyyətçilərin istifadəsi üçün nəzərdə tutulmuşdur və binanın ayrı-ayrı yerlərinin istismar edilməsi imkanını təmin edir, ona görə də onları mənzil mülkiyyətçiləri arasında

fiziki cəhətdən bölmək olmaz. Bununla bərabər, AR qanunvericiliyində hal-hazırda vahid «əmlak kompleksi» anlayışı və əmlak komplekslərinin hüquqi rejiminin vahid tənzimlənməsi yoxdur. Bu gün «əmlak kompleksi» anlayışının və onun fərqləndirici xüsusiyyətlərinin qanunvericiliklə təsbit edilməsi zəruriliyi açıq-aşkardır. «Əmlak kompleksi»nin vahid anlayışının daxil edilməsinə ehtiyac məhkəmə praktikası ilə də təsdiq olunur. Kompleksin məqsədli təyinatının xüsusiyyətləri əmlak komplekslərinin ayrı-ayrı növlərinin hüquqi rejiminin xüsusiyyətlərini də qabaqcadan müəyyən edir. Məsələn, çoxmənzilli binanın ümumi əmlakının özgəninkiləşdirilməsi. Vahid əmlak kompleksinə vahid təyinatla birləşdirilmiş binaların, qurğuların və fiziki, texnoloji cəhətdən qırılmaz surətdə əlaqəli olan (o cümlədən xətti obyektlərin – dəmir yolları, elektrik xətləri, boru kəməri və digərləri), yaxud vahid torpaq sahəsində yerləşən digər oxşar obyektlərin məcmusu kimi baxılır, bir şərtlə ki, göstərilən obyektlərin bir daşınmaz əşyaya birləşdirilməsi daşınmaz əmlaka hüququn Dövlət Reyestrində əks olunsun. Bu anlayış obyektin vahid əmlak kompleksi kimi tanınmasının aşağıdakı meyarlarını fərqləndirməyə imkan verir: özünə torpaq sahəsi ilə bağlı olan daşınmaz obyektləri daxil edən obyektlər məcmusunun mövcudluğu; bu obyektlərin vahid təyinatı; əmlak kompleksini təşkil edən obyektlərin özlərinin ayrılmaz fiziki və texnoloji əlaqəsi, yaxud vahid torpaq sahəsində yerləşmə sayəsində onların qarşılıqlı əlaqəsi.

Fikrimizcə, qeydiyyat əmlak kompleksinə münasibətdə mülki hüquqların yaranması, dəyişilməsi, xitam verilməsi üçün həlledici əhəmiyyətə malik olmalıdır, lakin onun mühüm əlamətləri sırasına daxil deyildir.

Dissertasiya işinin ikinci fəsli iki paraqrafdan ibarət olmaqla **«Ümumi mülkiyyət hüququnun həyata keçirilməsi»** mövzusuna həsr edilmişdir. Bu fəsildə ayrı-ayrılıqda ümumi mülkiyyət hüququnun paylı və birgə formalarında həmmülkiyyətçilərin sahiblik, istifadə və sərəncam hüquqlarının hədləri araşdırma predmetini təşkil etmişdir.

**«Azərbaycan Respublikasının mülki hüququnda paylı mülkiyyətin hüquqi rejimi»** adlı birinci paraqraf bu institutun xüsusiyyətlərinin ümumi xarakteristikasına həsr edilmişdir. Ümumi paylı mülkiyyət institutunun müasir dövrdəki vəziyyətini, hüquq tətbiqi praktikasında yaranan ümumi paylı mülkiyyət institutuna dair problemləri təhlil etməklə, müəllif qeyd edir ki, əgər əmlak paylı mülkiyyət hüququnda yalnız ər-arvada, yaxud ər-arvada və hansısa



üçüncü şəxslərə məxsus olarsa, onda belə paylar ər-arvada məhz pay kimi məxsus olacaq və burada heç bir birgə mülkiyyət olmamalıdır. Bu məsələnin əks həlli, mahiyyətcə yalnız bir kolliziya və ziddiyyətlə sadə əmlak modeli doğurmağa qabildir. Xüsusən, belə yanaşma həm ər-arvada (və ya onların hər ikisinə) müəyyən paylar əvəzsiz əqd üzrə daxil olan hallarda, həm də payların əvəzli əldə edilməsi halında tətbiq edilməlidir. Birinci modelə nümunə kimi, məsələn, anaya və nikahda olan oğula paylı mülkiyyət hüququnda hansısa əmlak məxsus olan və ana öz payını oğlunun arvadına (öz gəlininə) hədiyyə verən situasiya ola bilər. Bu halda arvada pay məhz onun ideal ifadəsində məxsus olacaqdır. İkinci modelə nümunə kimi eyni situasiyanı göstərə bilərik, lakin bir şərtlə ki, göstərilən pay qayınanadan gəlinə alqı-satqı müqaviləsi üzrə keçsin. Bu halda belə pay birgə mülkiyyətin tərkib hissəsinə çevrilməyəcək, arvada onun müstəqil payı kimi əldə edilən formada, ölçüdə (həcmdə) məxsus olacaqdır. Hüquqtətbiqedicilər tərəfindən yol verilən səhvlərdən daha biri də burada iştirak edən prinsipial müxtəlif kateqoriyaların qarışdırılması təşkil edir. Söhbət «əmlakda pay» və «paylı rejim» haqqında gedir. Əmlakda pay ər-arvadın hər ikisinə birlikdə, yaxud onların hər ikisinə və üçüncü şəxslərə məxsus olan vaxt belə əmlaka münasibətdə paylı mülki-hüquqi rejim fəaliyyətdə olur. Hüquqda pay ər-arvaddan yalnız birinə məxsus olan vaxtı isə, bu pay ona onun əmlak hissəsi kimi məxsus olacaq (bizim halda – birgə mülkiyyət). Əlbəttə, paylı rejim bu halda da mövcud olacaq, lakin o, «ər-arvad - üçüncü şəxs (həmmülkiyyətçi)» münasibətinə şamil ediləcək; «ər-arvad – arvad-ər» münasibətlərinə həmin rejim şamil edilməyəcək. Belə vəziyyətdə hüquqi vakuum yaranır ki, oranı da birgə mülkiyyət rejimi uğurla doldurur. Bunun nəticəsində ər-arvadın payı bunun üçün zəruri əsaslar olması zamanı ər-arvadın birgə mülkiyyətinə düşür.

Ər-arvad arasındakı mübahisələr ümumi mülkiyyətdə payların müəyyən edilməsinin mülki-hüquqi tənzimlənməsi üçün böyük çətinlikləri ifadə edir. Müəllifin fikrincə, AR MM-in 10-cu fəsli ailə maraqlarının nəzərə alınması funksiyasını realizə etmir. Özəl-hüquqi əmlak münasibətlərinin bu sahəsinin dövlət-hüquqi tənzimlənməsinin rolunu artırmaq üçün müəllif müvafiq düzəlişlərlə məcburi nikah müqaviləsinin AR MM-ə və AR Ailə Məcəlləsinə daxil edilməsi haqqında məsələyə baxılmasını təklif edir. Tərəflər bu nikah müqaviləsinə təşəbbüsü olmadıqda qeydiyyat şöbələri nikah

bağlanılana qədər nikaha daxil olanlar arasında nikah müqaviləsinin nümunəvi formasının imzalanmasını təmin etməyə borcludur.

Mülki-hüquqi tənzimləmədə çətinliklər doğuran daha bir aspekt ər-arvadın ümumi əmlakının vərəsəlik məsələləri hesab olunur. Vərəsəlik hüququ ər-arvadın birgə mülkiyyətindən ona çatası əmlak hissəsinə aid deyildir. Beləliklə, əmlak hüquqlarının eyni bir obyektini tənzimləyən iki bərabər hüquq arasında kolliziya yaranır. Müəllif nümunəvi nikah müqaviləsinə müvafiq müddəaların daxil edilməsi yolu ilə subyektlərin vərəsəlik hüquqları sahəsini gücləndirməyi təklif edir. Ər-arvadın ümumi paylı mülkiyyətindən başqa müəllif ailə kəndli təsərrüfatının paylı mülkiyyətinin xüsusiyyətlərini də təhlil edir. Bu sahədə Azərbaycan mülki hüququnda müəyyən boşluqlar mövcuddur. Bu boşluqlar hüquqtətbiqedici praktikada ailə kəndli təsərrüfatının ümumi əmlakına sahibliyin və ondan istifadənin xüsusiyyətlərini nəzərə almağa imkan vermir. Bu xüsusiyyətlər Torpaq Məcəlləsində, Ailə Məcəlləsində, mülki hüququn vərəsəlik və digər münasibətlərini tənzimləyən başqa institutlarında qanunvericiliklə təsbit edilməlidir.

İkinci fəslin **«Azərbaycan Respublikasının mülki hüququnda birgə mülkiyyətin hüquqi rejimi»** adlı ikinci paraqrafında müvafiq təhlil aparılmaqla ümumi birgə mülkiyyətin ər-arvadın ümumi mülkiyyəti və ailə kəndli təsərrüfatının ümumi mülkiyyəti formaları tədqiq edilmişdir.

Müəllifin apardığı tədqiqat belə bir nəticə çıxarmağa imkan verir ki, ən mürəkkəb iş ər-arvadın çox böyük diqqət yetirilən, birgə qazandıqları əmlaka baxılması ilə əlaqədar olan mülki işlər hesab edilir. Məhkəmə praktikasının təhlili göstərir ki, bir mülki işə qanunvericilik bazasının mükəmməl olmaması nəticəsində müxtəlif məhkəmə instansiyalarında dəfələrlə baxıla bilər. AR Ali Məhkəməsi Plenumunun 2 dekabr 1994-cü il tarixli 8 saylı «Ər-arvad arasında əmlak mübahisələri ilə əlaqədar məhkəmə təcrübəsində qanunvericiliyin tətbiqi haqqında» Qərarları ər-arvadın birgə əmlakının bölünməsi haqqında suala dəqiq cavab vermir, burada yalnız ər-arvadın ümumi birgə mülkiyyəti hesab edilən əmlakın bölünməsi zamanı məhkəmənin AR Ailə Məcəlləsinin 37.2-ci maddəsinə müvafiq olaraq, ayrı-ayrı hallarda yetkinlik yaşına çatmayan uşaqların və (və ya) ərin (arvadın) diqqətəlayiq mənafeyini nəzərə almaqla onların paylarının bərabərliyi prinsipindən geri çəkilə bilməsindən danışılır.



Ər-arvaddan birinin diqqətəlayiq mənafeləri dedikdə, təkcə o cümlədən onların üzrsüz səbəbdən gəlir əldə etmədiyi, yaxud ümumi mülkiyyəti ailənin mənafeyinə zidd olaraq sərf etdiyi hallar deyil, həm də səhhətinə görə və ya ondan asılı olmayan hallara görə ər-arvaddan birinin əmək fəaliyyətindən gəlir əldə etmək imkanından məhrum olduğu hallar da başa düşülməlidir. Bölünməli olan əmlakın daşıdığı yükün müəyyən edilməsi və onun ər-arvaddan birinə ödənilməli olacaq kompensasiyadan qarşılıqlı asılılığı ilə də çətinliklər yaranır. Mülki-hüquqi qanunvericiliyin bu bölməsi ərin (arvadın) hüquqlarının qorunması məqsədilə yeni hüquq normalarının daxil edilməsi vasitəsilə təkmilləşdirilməlidir. Yəni verilən əmlakın dəyərindən və onun ölçülərindən asılı olaraq əmlaka görə kompensasiyanın miqdarını müəyyən etmək lazımdır. Həmçinin, mülkiyyətçinin öz əmlakını saxlaması yükünün anlayışı izah olunmalıdır. Bundan başqa, əmlakdan istifadə qaydasının müəyyən edilməsi haqqında işlərin geniş yayılmasına, bu kateqoriya işlər üzrə əldə olan məhkəmə təcrübəsinə baxmayaraq, bir sıra məsələlər mübahisəli hesab edilir və həm qanunverici tərəfindən əlavə tənzimlənməyə, həm də AR Ali Məhkəməsi tərəfindən əlavə izahata ehtiyac hiss edir.

Dissertasiya işinin üçüncü fəsli **«Ümumi mülkiyyət hüququnun müdafiəsinin üsul və formaları»**na həsr edilmişdir. Fəsil iki paraqrafdan ibarətdir.

Birinci paraqraf **«Ümumi mülkiyyət hüququnun müdafiəsinin nəzəri problemləri: müqayisəli hüquqi təhlil»** adlanır. İstənilən praktiki problemin həllinin əsasında yaxşı nəzəriyyə dayanır. Ölkə praktikası məhkəmələr qarşısında elə suallar qoyur ki, onların həlli lazımi doktrinal kömək tələb edir. Onsuz səhv qərarlardan qaçmaq sadəcə qeyri-mümkündür. Bu problemi həll etmək üçün müəllif qarşısına xarici ölkələrin hüquq doktrinalarının ümumi mülkiyyətin və onun növlərinin hüquqi təbiətinə dair yanaşmaları nəzərdən keçirmək, eləcə də bu sahədə ölkənin müasir məhkəmə praktikasının vəziyyətini təhlil etmək və onun təkmilləşdirilməsi üzrə təkliflər vermək vəzifəsini qoymuşdur.

Xarici ölkələrin hüquq doktrinalarında ümumi mülkiyyətin hüquqi statusunu nəzərdən keçirən müəllifin fikrincə, Almaniya hüquq doktrinasına xüsusi diqqət yetirilməlidir. Almaniya və Azərbaycanda (eləcə də bir sıra MDB dövlətlərində ) ümumi

mülkiyyət iki növə ayrılır: paylı (Miteigentum) və birgə (Gesamteigentum). Ümumi mülkiyyətin bu növləri arasında göstərilən institutların mənşə tarixləri ilə bağlı olan kifayət qədər ciddi fərqlər vardır. Hər bir həmmülkiyyətçiyə əşyada müəyyən, səbatlı pay məxsusdur; o, məkanda əşyanın hansısa bölünməsindən irəli gəlmir, onu real surətdə duymaq olmaz və ona görə də qanun onu ideal adlandırır: o, yalnız mücərrəd fikrən əməliyyat nəticəsində zühur edir. Bu pay mülkiyyətə oxşar olan müstəqil əşya hüququdur. Ona görə də, əgər başqa hal nəzərdə tutulmayıbsa, ona dair əşyaya mülkiyyət hüququ üçün müəyyən edilən ümumi qayda tətbiq edilməlidir (AFR Ali Məhkəməsinin mövqeyi belədir). Alman alimlərinin fikrincə həmmülkiyyətçi payına təkbaşına öz mülkiyyətinə sərəncam verdiyi kimi sərəncam vermək, yəni təkbaşına mülkiyyət üçün nəzərdə tutulan formada satmaq, yüklülüyünü müəyyənləşdirmək hüququna malikdir. Həmmülkiyyətçi hesab olunmayan şəxsin xeyrinə pay özgəninkiləşdirilərkən üstünlük hüququ Almaniya hüququna məlum deyildir. İstənilən həmmülkiyyətçi öz payını sakit tərzdə yüklü edə, məsələn, uzufrukt, girov, əşyanın yüklənməsi və ya ipoteka müəyyənləşdirə bilər. Əksinə, paya münasibətdə lazımi şəkildə bütün əşyaya aid olan hüquqlar müəyyən edilə bilməz: tikinti hüququ, torpaq və şəxsi servitutlar (sonuncular yalnız bütün həmmülkiyyətçilərin razılığı ilə baş verə bilər). İstənilən həmmülkiyyətçi arxasında payın qalan hissəsini saxlamaqla, yalnız öz pay hissəsini satmaq hüququna malikdir. Həmmülkiyyətçinin səlahiyyətləri təkbaşına mülkiyyətçinin səlahiyyətlərinə müvafiqdir, lakin nəzərə almaq lazımdır ki, həmmülkiyyətçi digər həmmülkiyyətçilərin hüquqi birliyindədir. Ona görə də həmin səlahiyyətlərin həyata keçirilməsi sonuncuların maraqlarına ziyan vurmamalıdır. Beləliklə, ümumi paylı mülkiyyət həmmülkiyyətçiyə mülkiyyətçinin bölünən olan müəyyən səlahiyyətlərini verir və onun bölünməz səlahiyyətlərində iştirakçı olur, ölkə qanununda «pay» terminindən hədsiz səliqəsiz istifadə olunur. Doktrinadan aydındır ki, pay – əşyanın özündə deyil, hüquqda paydır, hissədir, lakin qanunda «pay» termini həm də əşyanın (əmlakın) hissəsi mənasında işlədilir. AR MM-in 220.2-ci maddəsinə əsasən, paylı mülkiyyətin iştirakçısı ümumi əmlakdan öz payının ayrılmasını tələb edə bilər. Aydındır ki, əgər pay dedikdə, mülkiyyət hüququnda ideal kvota başa düşülürsə,



onda bu payın ayrılmasını tələb etmək təsəvvür edilməzdir: əgər biz onun ölçüsünü, həcmini biliriksə, elə o, «ayrılmış» hesab edilir (məsələn, 1/3).

**«Ümumi mülkiyyət hüququnun müdafiəsinin mexanizmləri»** adlandırılan ikinci paraqrafda hüquq tətbiqi fəaliyyətində onların realizəsinin normativ-hüquqi tənzimlənməsinin təhlili aparılmışdır. Bu məsələni nəzərdən keçirərkən müəllif nəticə çıxarır ki, ümumi mülkiyyət müəyyən ziddiyyətlə səciyyələnir, bu isə həmin instituta özünəxas inkişaf etməyə imkan verir. Bu ziddiyyət obyektlərin parçalanması ilə əlaqədardır: əşyanın özü və ona hüquqda pay. Bu obyektlərə sahiblənmə və onlara dair sərəncam vermə və nəhayət, onların üçüncü şəxslərin qəsdlərindən müdafiəsi bir-birinə bənzəməyən müstəqil prinsiplər üzərində qurulur. Bu zaman bütövlükdə əşyanın müdafiəsi, bir qayda olaraq, üstünlükdən istifadə edir, həm də əşyaya sahiblik mütləq tədqiq edilir və pay hüququnun müdafiəsinin əsasına qoyulur. Eyni fikir əşyanın və ona hüquqda müxtəlif cür müəyyən edilən payın vicdanlı əldə edilməsi məsələsinə də aiddir.

Bu paraqrafda ümumi mülkiyyət hüququnun müdafiəsi zamanı yaranan problemləri nəzərdən keçirməklə, müəllif nəinki müasir Azərbaycan və Rusiya Federasiyası hüquq tətbiqi praktikasına istiqamətlənmiş, həmçinin ümumi mülkiyyətin və onun növlərinin hüquqi təbiətinə dair Almaniya və İsveçrə hüquq doktrinalarının yanaşmalarını nəzərdən keçirmişdir. Qanunvericinin birgə və paylı mülkiyyət anlayışlarının qarışdırılması onların realizə olunmasında çətinliklər yaradır . Belə ki, məsələn, AR MM-in 224.1-ci maddəsinə əsasən, paylı və ya birgə mülkiyyət mülkiyyətçisinin başqa əmlakı kifayət etmədikdə onun kreditoru borclunun ümumi əşyadakı payına tutmanın yönəldilməsi üçün həmin payın ayrılmasını tələb edə bilər. Əgər bu mümkün deyilsə, pay ya ümumi mülkiyyətin qalan iştirakçılarına, ya da hərrac yolu ilə üçüncü şəxslərə satılır. Qanun həm ümumi paylı, həm də ümumi birgə mülkiyyət üçün vahid rejim müəyyənləşdirir. Lakin ümumi mülkiyyətin bu növləri bir-birindən köklü surətdə fərqlənir və ümumi birgə mülkiyyətdə payın, ümumiyyətlə, hansısa satışı barədə söhbət belə gedə bilməz, çünki hüququn belə obyekti ümumiyyətlə mövcud deyildir.

Bu paraqrafda məhkəmə təcrübəsində meydana çıxan problemlərə də diqqət yetirilmişdir**.** Birincisi, iddiaçı tərəfindən ümumi əmlakdan istifadə qaydasının konkret təklif edilən variantı olmadıqda

iddia ərizəsinə məhkəmənin baxmaq hüququ hesab edilir. Fikrimizcə, bu halda AR MPM-in 152-ci, 259-cu və 260-cı maddələrinə müvafiq olaraq iddia ərizəsi geri qaytarıla bilər və yaxud baxılmamış saxlanıla bilər, çünki orada iddiaçının tələbləri konkret xülasə edilməmiş, mübahisə predmetinə dair iddiaçının iradəsi dəqiq ifadə edilməmişdir. İddiaçıda istifadə qaydasının müəyyən edilməsinin bütün mümkün variantlarının dərk edilməsi üçün (xüsusən, torpaq sahələrindən istifadə qaydasının müəyyən edilməsi zamanı) xüsusi biliklərin olmaması, fikrimizcə, maneə hesab olunmur, çünki iddiaçı iddia tələblərini şəxsi iradəsi, yaşayış təcrübəsi və şəxsi maraqları əsasında xülasə edə bilər. İkincisi, əgər əmlakdan istifadə qaydasının müəyyən edilməsi haqqında iddia bəyan edilmişsə, onda məhkəmənin hansı qərar qəbul etməsi sualı yaranır, istifadə qaydasının müəyyənləşdirilməsindən savayı ümumi əmlak barədə bölünmə mümkündür ya yox? AR MM-in 213.4-cü maddəsinə müvafiq olaraq ümumi mülkiyyət təyinatı dəyişdirilmədən bölünə bilməyən əşyanın (bölünməz əşya) və ya bu Məcəlləyə görə bölünməli olmayan əşyanın iki və ya bir neçə şəxsin mülkiyyətinə daxil olması zamanı yaranır. Bölünən əşyaya ümumi mülkiyyət bu Məcəllədə və ya müqavilədə nəzərdə tutulmuş hallarda yaranır. Əmlak bölünə bildıyi halda o, ümumi birgə mülkiyyətdə ola bilməz, bu əmlaka münasibətdə istifadə qaydası müəyyən edilə bilməz və belə halın mövcudluğunda məhkəmə iddianı rədd etməlidir. Üçüncüsü, daha bir mübahisəli problem iddiaçının ümumi əmlakdan konkret istifadə qaydasını təklif etdiyi situasiya hesab olunur, məhkəmə isə ümumi əmlakdan başqa variant üzrə istifadə qaydasının müəyyən edilməsinin zəruriliyi haqqında nəticəyə gəlir. Fikrimizcə, bu halda məhkəmə iddiaçının təklif etdiyi variantdan fərqlənən digər variant üzrə ümumi əmlakdan istifadə qaydasını müəyyən etməlidir. Nəhayət qeyd edək ki, əgər kimsə həmmülkiyyətçinin payını onun razılığı olmadan satmağa cəhd edərsə, lakin həmmülkiyyətçi mübahisə edilən əşyaya sahibliyini (şərikliyini) saxlayarsa, onda bu əqd göstərilən həmmülkiyyətçini heç cür narahat etməməlidir. Əgər sonda tələb olunarsa, onda o, paya hüququn tanınması haqqında iddia vasitəsi ilə öz maraqlarını müdafiə etmək üçün iddia müddətinə heç bir vaxt qoyulmur. Bu, ilk növbədə, daşınar əşyalara aiddir, əgər daşınmaz əmlak sahəsində kimsə etibarsız əqdlər nəticəsində özgə payına hüququ dövlət reyestrində qeydiyyata aldırırsa, onda bu halda eyni şey baş verir, yəni burada da yuxarıda olduğu kimi, paya hüququn



tanınması haqqında iddia qaldırılır. Bu yanaşma Ali Məhkəmənin izahatına ehtiyac duyur.

**Nəticə** hissəsində dissertasiya tədqiqatının böyük maraq kəsb edən əsas nəticələri xülasə edilir və ümumiləşdirilir, qanunvericiliyin təkmilləşdirilməsi üzrə nəzəri və praktiki təkliflər irəli sürülür.

**Dissertasiyanın əsas müddəaları müəllif tərəfindən nəşr olunan aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır:**

1. Ümumi paylı mülkiyyət hüququnun həyata keçirilməsinin nəzəri və hüquqi əsasları // Qanunçuluq, №11, 2009 noyabr, s.56-59.

2. Ərlə arvadın əmlak münasibətlərinin bəzi məqamları // Milli Məclis analitik informasiya jurnalı, 2010, yanvar - fevral, s.88-93.

3. Birgə mülkiyyətdə olan əmlakın bölünməsinin bəzi məqamları // Məhkəmə ekspertizası, Kriminalistika və Kriminologiyanın aktual məsələləri, 2010, № 52, s.190-194.

4. Ümumi paylı mülkiyyətdə olan əşyanın mülkiyyətçisinin razılığı olmadan bölünməsi // Bakı Universitetinin Xəbərləri, sosial-siyasi elmlər seriyası, 2011, №3, s.45-53.

5. Ümumi mülkiyyətdə olan əmlak üzərində sərəncam verilməsinin bəzi məsələləri // Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri, humanitar elmlər seriyası, 2011, №31, s. 159-167.

6. Azərbaycan qanunvericiliyində ümumi mülkiyyətin hüquqi tənzimlənməsi // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş "Dövlət və hüquq quruculuğunun aktual problemləri" mövzusunda 11-ci Respublika elmi- praktik konfransının materialları, 11-12 may Bakı - 2011, 1-ci cild, s. 195-197.

7. Ümumi mülkiyyətdə olan əmlakdan istifadə hüququnun həyata keçirilməsi hədləri // Məhkəmə Ekspertizası, Kriminalistika və Kriminologiyanın aktual məsələləri, 2011, №53, s. 163-167.

8. Объзятельственно-правовые способы зашиты права общей собственности // Наука и бизнес: пути развития, Москва, 2012, №3(09), с.91-95.

9. Проблемы определения порядка пользования общей собственностью (сравнительный анализ гражданского законодательства Азербайджана и России) // Мир экономики и права, Санкт – Петербург, 2014, №3, с.81-86

**РЕЗЮМЕ**

Диссертация Айгюн Фиридун кызы Гаджиевой на тему «Теоретические и практические проблемы реализации права общей собственности и ее

гражданско-правовой защиты» на соискание ученой степени доктора философии по праву по специальности: 5608.01– «Гражданское право; предпринимательское право; семейное право; международное частное право» посвящена проведению комплексного исследования проблем общей собственности.

Диссертация состоит из введения, семи параграфов заключенных в трех главах, заключения и списка использованной литературы.

Во «Введении» обосновывается актуальность диссертационной темы, освещается степень её научной изученности, определяются цели, задачи, теоретические и нормативные основы исследования, формируются основные положения, выносимые на защиту и раскрывается научное и практическое значение работы.

Первая глава называется «Общетеоретические вопросы права общей собственности» и состоит из трех параграфов: Собственность как правовая и экономическая категория; Понятие права общей собственности; Субъекты и объекты права общей собственности. В этой главе отмечается, что комплексная характеристика права собственности предопределяется несколькими факторами. Во-первых, «собственность» следует толковать не только как правовую, но и как экономическую категорию. Во-вторых, право собственности как комплексный правовой институт не может быть урегулирован исключительно нормами гражданского права. Базовые государственно-правовые гарантии определены в конституционном праве, запреты и ограничения в административном и уголовном, прикладные отрасли конкретизируют порядок осуществления правомочий. Для определения авторской позиции к праву собственности как правовой и экономической категории, подробно рассматриваются признаки права собственности. Далее в этой главе представляется понятие общей собственности, отвечающее требованиям современного законодательства. Так как в литературе в основном понятие общей собственности ассоциируется только с его субъективным содержимым, а это не дает возможности для полного раскрытия ее сущности. В этой главе также были рассмотрены объекты и субъекты общей собственности, в частности совместной собственности супругов и общей совместной собственности членов крестьянского (фермерского) хозяйства.

Вторая глава называется «Реализация права общей собственности» и состоит из двух параграфов. В параграфах по отдельности были исследованы особенности реализации прав владения, пользования и распоряжения в отношении общей совместной и долевой собственности

Третья глава называется «Методы и формы гражданско-правовой защиты общей собственности» и состоит из двух параграфов: Теоретические проблемы защиты права общей собственности. Сравнительный анализ.; Методы и формы защиты права общей собственности. В этой главе исследуются методы и формы защиты прав общей собственности и представляется сравнительный анализ законодательства Германии, Швейцарии с нашим законодательством в сфере защиты прав общей собственности, также выдвигаются предложения по усовершенствованию соответствующего законодательства.

В заключении указаны предложения и выводы, вытекающие из исследования, а также отражена их теоретическая и практическая значимость.

**SUMMARY**

The dissertation work of Aygun Firidun Hajiyeva on the theme "Implementation of the common property, and theoretico-practical problems of its



civil protection" for the degree of Doctor of Philosophy in Law, specialty: 5608.01 - "Civil law; business law; family law; Private international law "is devoted to carrying out a comprehensive study of problems of common property.

The thesis consists of an introduction, seven paragraphs concluded in three chapters, conclusion and bibliography.

“Introduction” gives the actuality of the thesis topic, highlights the degree of scientific scrutiny, identifies goals, objectives, theoretical and normative foundations of research. The main provisions of thesis and the practical importance of the work is revealed in Introduction.

The first chapter is called "Theoretical questions of the right of common ownership" and consists of three sections: Property as the legal and economic category; The concept of the right of common ownership; Subjects and objects of the right of common ownership. In this chapter, it points out that a comprehensive description of the property right determined by several factors. Firstly, the "property" should be interpreted not only as a legal, but also as an economic category. Secondly, the right to property as a complex legal institution cannot be resolved only by civil law. Basic public-legal guarantees defined in constitutional law, prohibitions and restrictions in administrative and criminal law, applied industry concretize the procedure of powers. To determine the author's position to the right of property as a legal and economic categories, the report focuses on signs of ownership. The remainder of this chapter presents the concept of common ownership that meets the requirements of modern legislation. Since literature is mainly the concept of common ownership is associated only with its subjective content, and this does not allow for the full disclosure of its essence. This chapter also considered the objects and subjects of common ownership, in particular the joint property of spouses and common property of members of a peasant (farmer's) economy.

The second chapter is called "The realization of the right of common ownership" and consists of two sections. The sections were examined individually features of ownership, use and disposal in relation to joint and shared ownership.

The third chapter is entitled "Methods and forms of civil-law protection of common property" and consists of two sections: Theoretical problems of protection of the right of common ownership. Comparative analysis; Methods and forms of protection of the right of common ownership. This chapter examines the methods and forms of protection of the rights of the common property and presents a comparative analysis of legislation of Germany, Switzerland, with our laws in sphere of protecting the rights of common ownership, also put forward proposals to improve relevant legislation.

In the conclusion practical recommendations and proposals directed on improving the legislation are formulated.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**АЙГЮН ФИРИДУН кызы ГАДЖИЕВА**

# ТЕОРЕТИЧЕСКИЕ И ПРАКТИЧЕСКИЕ ПРОБЛЕМЫ РЕАЛИЗАЦИИ ПРАВА ОБЩЕЙ СОБСТВЕННОСТИ И ЕЕ ГРАЖДАНСКО-ПРАВОВОЙ ЗАЩИТЫ

**СПЕЦИАЛЬНОСТЬ: 5608.01 - «Гражданское право; предпринимательское право; семейное право; международное частное право»**

**А В Т О Р Е Ф Е Р А Т**
**диссертации на соискание ученой степени доктора философии по праву**

**БАКУ – 2015**